


# "Yaşıl gələcəyə könül ver" adlı görüş

***Dekabrın 18-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə "Yaşıl gələcəyə könül ver" mövzusunda görüş keçirilib. Görüş 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına və "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, eləcə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının ölkəmizdə keçirilən 29-cu Sessiyasının (COP29) nəticələrinin və yeni hədəflərin gənclərlə müzakirə edilməsi, könüllü fəaliyyətin dəstəklənməsi məqsədini daşıyır.***

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı, Gənclər və İdman Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi və Gənclər Fondunun əməkdaşlığı ilə təşkil olunan görüşdə dövlət və hökumət nümayəndələri, millət vəkilləri və digər rəsmilər iştirak ediblər. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan görüş-



də ulu öndər Heydər Əliyevin və vətən uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Pantomima teatrının aktyorlarının ifasında tamaşa nümayiş etdirilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki, könüllü gənclərin COP29-dakı fəaliyyəti ilə yanaşı, onların digər sahələrdə də aktivliyi böyük işlərə doğru atdıqları addımlardan xəbər verir. Ölkənin gələcəyi məhz gənclərdən asılıdır: "Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi hazırda "Ailəm könüllüləri" proqramını davam etdirir. Lakin gələcək üçün fəaliyyətimizi genişləndirməyi düşünürük. Bu proqramın bir istiqaməti ekologiya, ətraf mühit olmalıdır". B.Muradova, həmçinin bildirib ki, könüllülər üçün qurum və komitələrin birgə fəaliyyətində məqsəd bu prosesi davam etdirməkdir.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov isə qeyd edib ki, dünyada iqlim dəyişmələrinin hələ əyani şəkildə sağlamlığa birbaşa təsiri olmadığından insanlar bundan xəbərsizdir: "Bəzən iqlim dəyişmələri sağlamlığa birbaşa da təsirə edə bilir. Buna misal, istilik dalğasını göstərmək olar. İqlim dəyişmələrinin sağlamlığa təsirinin ən böyük göstəricisi infeksion xəstəliklərin yayılmasıdır. Bu səbəbdən, bəzi xəstəliklərin coğrafiyası dəyişir. Hətta bəzi Avropa ölkələrində orta illik temperatur o qədər artıb ki, Afrika ölkələrində olan infeksion xəstəliklər artıq Avropa ölkələrində miqrasiya edir".

Milli Məclisin deputatı, COP29 iqlim çempionu Nigar Arpadarai söyləyib ki, Azərbaycanda illərdir böyük tədbirlər keçirilir və ölkəmizdə könüllülük artıq ənənə halını alıb: "COP29 zamanı da bir sıra uğurlara imza atdıq. Ümumilikdə, 16 min nəfər könüllülük üçün qeydiyyatdan keçmişdi. Onlardan yalnız 3 min nəfəri prosesə cəlb olundu. Təkcə 9 min nəfər ilk gündə COP29-da könüllük üçün müraciət etmişdir". N.Arpadarai, həmçinin qəbul olunan qərarlar baxımından COP29-un tarixi bir tədbir olduğunu diqqətə çatdırıb.

Daha sonra könüllülər tərəfindən dövlət rəsmilərinə suallar ünvanlanıb.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**